Şərq

15 oktyabr / 2021



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



Şəhid Mütəllimzadə Ağacavad

# Hilal qartalı

## Kəşfiyyat qrupunun könüllüsü Ağacavad Mütəllimzadə son damla qanınadək döyüşüb

**Azərbaycan tarix boyu nələr yaşamadı... Yeraltı, yerüstü sərvətlərinə görə vətənimizin başına nə oyular açılmadı... Dost oldu, inandı, hamını özü kimi bildi. Amma hər gələn taladı, apardı... Tarix boyu nə qədər döyüşlər gördü bu torpaq... Nə qədər şəhidlər verdi bu Vətən... Qarabağ kimi dilbər guşəmizin işğalı bizə çox baha oturdu; minlərlə şəhid, qaçqın, köçkün, hər bölgədə Şəhidlər Xiyabanı, bağrı yanıq analar, bacılar, beli bükülən atalar, qardaşlar, ərsiz qalan gəlinlər, atasız qalan körpə balalar...**

Nəhayət bir gün gəldi, Azərbaycan tarixində "Vətən müharibəsi" kimi qeyd olunan hadisə baş verdi, Vətənin igid oğullarının şücaəti ilə torpaqlarımız geri alındı və 2020-ci ilin 8 noyabrı tariximizə "Zəfər günü" kimi yazıldı...

Hər dəfə Maştağa Şəhidlər Xiyabanına gedəndə şəhid övladları ilə qürur duyan analarla, atalarla rastlaşıram. Şəhid Ağacavad Mütəllimzadənin anasını da ilk dəfə orada görmüşdüm. Şəhid anaları söhbət edirdilər. Yaxınlaşanda bu sözləri eşidə bildim: "Onlar Vətənçün gediblər, onlar bizə görə şəhid olublar". Bu sözləri deyən Şəhid Ağacavadın anası Nailə xanım idi. Sonralar onunla iş yerində görüşdüm, Ağacavadın ev-muzeyində də oldum...

Ağacavadın atası ilə evlərində tanış olduq. Olduqca sakit adam idi. Gəlib oturdu, amma heç nə demədi. Nailə xanım dedi ki, bəlkə nəsə danışasan. "Nə danışım..." deyib susdu və bir azdan qalxıb getdi. Nailə xanım dedi: "Ağacavadın atası heç vaxt xəstəlik görməmişdi, Ağacavaddan sonra xəstələndi. Mən 31 ildə onu belə ağlayan görməmişdim. Sonra da özünə qapandı. Mən Şəhidlər Xiyabanına tez-tez gedirdim, amma o getmirdi. Həmişə deyirdim ki, şəhid ataları hamısı gəlir, sən getmirsən, heç nə demirdi. Sonra bir tanışımız dedi ki, mən hər səhər işə gedəndə onu Ağacavadın qəbrinin yanında görürəm. Sən demə, bu, heç kim görməsin deyə, hər səhər sübhdən xiyabana gedirmiş. Mən sonra dediklərim üçün ondan üzr istəməli oldum...".

Mən Nailə xanımdan Ağacavadın uşaqlığı haqqında danışmasını istədim, o isə lap dünyaya gəlişindən başladı və dedi: "Ağacavad 1997-ci il avqustun 14-də Maştağada doğulub. Əslində, mən qız istəyirdim, amma oğlan oldu.

2003-cü ildə Maştağadakı 255 saylı orta məktəbə qoyduq, ibtidai sinfi oxudu. İkinci oğlum xəstə idi, onun dərmanlarının pulunu çatdıra bilmirdik, Ağacavad da ona görə məktəbi buraxdı, başladı alver edib, evə pul gətirməyə. Çox mehriban uşaq idi. Ata-anaya yük olan uşaqları sevməzdi, onlarla dostluq etməzdi. Hamıya iş tapırdı, deyirdi ki, "İş yoxdu" sözünü başa düşmürəm, sadəcə tənbəllik edirsiz. Vaxtını bölüşdürürdü, həm işləyirdi, həm gəzməyə gedirdi. Səhər saat beşin yarısında dururdu. Mən onu heç vaxt oyatmadım, həmişə özü dururdu. Hansı işə göndərirdim, yarıdırdı. Xalagilə, əmigilə göndərirdim, özündən əvvəl tərifi gəlirdi. Ağacavad evin kiçiyiydi, amma qardaşları onu böyük sayırdılar...".

Nailə xanım növbəti sualımı gözləyirmiş kimi dedi: "1917-18-ci illərdə Murovda hərbi xidmətdə olub. İstəyirdim yerini dəyişim, o qədər təriflədi, dedi ki, mən elə istədiyim yerdəyəm. Biz dağdan düşəndə komandir ayağa durur ki, dağ igidləri gəlir. Hilal zirvəsində olub. Şəhid olandan sonra bildim ki, ona "Hilal qartalı" deyirmişlər...

Səfərbərlik olan gün könüllü gedib. Ağacavad getmək istəyəndə dedim ki, atan qoymaz. Dedi ki, onsuz da gedəcəyəm. Gedəcəyəm nənəgilə, ordan gedəcəyəm. Atasına deyəndə, o da dedi ki, o getməsə kim gedəcək. Kəşfiyyatçı olduğu üçün Füzuliyə göndəriblər. İmam Hüseyn aşiqi idi. Müharibəyə gedəndə məhəllədə uşaqlara deyib ki, kimin İmam Hüseynə salamı var, versin aparım.

Ağacavad Füzulidə, Zəngilanda, Cəbrayılda, Qubadlıda döyüşüb. Xocavənddə dostlarını mühasirədən çıxarıb, sonra şəhid olub. Orda erməni evlərinin birindən Qarabağ atlarının şəklini götürüb. Yoldaşı deyib ki, ağırdır, at getsin. Atmayıb, daşıyıb özüylə, deyib ki, sağ qalsam, bunu öz yerinə qoyacağam, qalmasam evə göndərərsiz...".

Həmin şəkil indi Ağacavadın ev-muzeyində divardan asılıb...

Nailə xanım kövrəldi, gözləri doldu, amma ağlamadı. Bir qədər sükutdan sonra heç nə olmamış kimi sözünə davam etdi: "Ağacavad tez-tez zəng vururdu, heç vaxt iki dəfə danışmazdı, amma sonuncu gün iki dəfə zəng vurdu...

Əvvəllər çox çətin oldu. Şəhidlik mənə çatmırdı. Deyirdim, mənim balam əlimdən gedib, bunlar fəxrlə deyirlər ki, şəhid olub. Sonra girdim İnternetə, şəhid analarının çıxışlarına qulaq asdım. Hər kəs öz övladından danışırdı, amma elə bilirdim ki, Ağacavaddan danışırlar. Çünki yaşantılarımız eyni idi.

Xocavənddə şəhid olduğu yerə Ziyarət dağı deyilir. Mən ora getmək istəyirəm, nazirlik mənə söz verib...

Nailə xanım Ağacavadın döyüş yoldaşlarının onunla bağlı danışdıqlarını mənə göndərəcəyini bildirdi, "yaxşı olar ki, özünüz qulaq asasız" dedi. Onun göndərdiyi səsləri yazıya alıb oxuculara təqdim edirəm...

Döyüş yoldaşı Kərimxanov Rövşənin dedikləri: "Ağacavadla eyni taqımda olmuşam, eyni manqada olmuşuq. Rəhmətlik bizə sonradan gəlib. Döyüş başlayan ərəfələrdə bəzilərinin bizim bölükdə olmaqdan qorxub aşağı bölüklərə qaçdığı zamanda, Ağacavad ürəklə bizim bölüyə can atıb, döyüşə girmək istəyib. Ağacavad bizim bölüyə gəldikdən bir neçə gün sonra artıq bizim bölüyün bir hissəsinə çevrilmişdi, aramızda elə isti münasibət vardı, elə bil ki, ilk gündən bizimlə olub. Ağacavad haqqında çox şey demək olar. Həqiqətən, çox mərd, öz hörmətini qoruyub saxlayan idi.

Döyüş zamanı Ağacavadı son görən mən oldum. Biz bir yerdə irəliləyirdik, Ağacavada ən yaxın olan mən idim. Ağacavad qəhrəmancasına döyüşüb, qəhrəmancasına şəhid olub və bizim aramızdan da qəhrəmancasına ayrılıb. Həmişə də Ağacavadın bizim qəlbimizdə yeri bir başqadır...".

Döyüş yoldaşı Məlikov Sübhanın dedikləri: "Ağacavad bizim hamımızın qardaşımızdır. Ağacavad sonra gəldi bizə. Bizdə könüllü kəşfiyyat bölüyü idi. Bölüyümüzdə elə şərait yaratmışdıq, böyük-kiçik söhbəti yox idi, hamımız qardaş idik, hamımız bir yerdə iş görürdük. Bölüyü Mübariz Quliyev başda olmaqla yaratmışdılar. Bizim bölüyün uşaqları bilinməsin deyə bizi "kabir" çağırırdılar, ətrafda çobanlardan da vardı, satqınlar da vardı. İlk öncə çox adam gəlmirdi, qorxurdu. Çünki bizi kənar döyüşlərə göndərirdilər. Üzbəüz döyüşə sırf kəşfiyyat bolümü göndərilirdi. Könüllü adam yığırdılar. Ağacavad da özü könüllü yazılıb gəlmişdi. Ağacavad bütün məclislərdə iştirak edirdi. Yığılırdıq, döyüşdən əvvəl oyun oynayırdıq, ya başımıza gələn əhvalatlar danışırdıq. O uşaqların arasında başda Ağacavad gəlirdi ki, neyləyək. Ağacavad yadda belə qalıb öz şeirlərilə, əhvalatlarıyla. Ağacavad ən çox şeir deyirdi. Özü də deyirdi ki, özüm yazmışam şeirləri. Təəssüf ki, o şeirlər qalmayıb...

Bir gün Füzuli istiqamətində döyüşə girmişdik. Füzuli götürüldü. Bizim qruplar irəliləyirdilər.

Sonra Cəbrayılı da götürdük. Cəbrayılın "kruqu" var, avtovağzal deyilən yer vardı.

İrəli gedəndən sonra Xocavənd gəlirdi. Alakül kəndində məskunlaşmışdıq. Ağacavad taqımda kəşfiyyatçı-istehkamçı ixtisasında olan bir əsgər idi. Gözləyirdik ki, arxadan taqım gəlsin. Kəndi təhvil verib, irəli gedək. Ağakküldən qabaqda Mücdərə kəndi vardı, onu götürdük. Sonra dörd villa olan yer vardı, mağara da vardı. Ermənilərdən qovduğumuzu qovduq, öldürdüyümüzü öldürdük, orada mağaradan silah-sursat götürdüyümüzü xəbər verdik, özümüzə lazım olan qədər də götürdük, Zamzur kəndinə getdik.

Ayın 22-si günü idi. Həyət var idi, arılardan bal götürüb yedik. Ermənilərdə qalan heyvanlardan kəsmişdik, həyətdə kabab çəkdik yedik, bütün uşaqlara çatdı, doymaq kimi yox, çörək yox idi... Dedilər bir adam görünüb, xəbər çatdı ki, önümüzdə ermənilər var. Ziyarət dağı deyilən yer vardı, "vışka" da deyirdilər. Plan quruldu ki, həmin dağı götürmək lazımdır. Ermənilər orda idi yuxarıda, biz aşağıda. Bölük komandirimiz irəli gedəndən sonra atışma başlandı. Həmin atışmada ilk öncə mən yaralandım. Mühasirədə idik, xəbər verdilər ki, yaralı var. Biz birinci qrupda idik, Ağacavad üçüncü, ya dördüncü qrupda idi. Amma bizim mühasirədə olduğumuzu bilib, özünü atmışdı bizim qrupa. Hansı ki, orada olmamalıydı. Necə ki, kəşfiyyat qrupuna könüllü gəlmişdi, eləcə də bu qrupa könüllü gəldi. Düşmən onları çox pis mühasirəyə saldı. Bizim gizlənməyə yerimiz vardı, amma onlar elə yerdə rastlaşdılar ki, gizlənməyə yerləri yox idi. Həmin istiqamətdə çox yaralımız oldu... Elə uşaqlar var ki, Füzulidə yemək yeyən vaxtda minomyot düşüb ölüblər. Ağacavad isə sırf üzbəüz döyüşdə şəhid oldu... Ağacavad xoş söhbətlərilə yadda qalıb...".

**Allah rəhmət eləsin, ruhu şad olsun. Allah ailəsinə səbr versin.**

**Sona Xəyal**